Şəhidlərin xatirəsinə sonsuz ehtiramın ifadəsi

***20** Yanvar faciəsinin otuz beşinci ildönümü ilə əlaqədar yanvarın 20-də ölkəmizin bütün bölgələrində səhər saatlarından Şəhidlər xiyabanları ziyarət edilib, vətənimizin müstəqilliyi və ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda şəhid olmuş igid vətən oğullarının məzarları üzərinə qırmızı qərənfillər düzülüb, şəhidlərin xatirəsi ehtiramla yad edilib. Saat 12:00-da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, avtomobillərin hərəkəti dayandırılaraq nəqliyyat vasitələrindən səs siqnalları verilib.*

Gəncə

Gəncə Şəhər Şəhidlər Xiyabanında 20 Yanvar faciəsində Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda həlak olan şəhidlərin xatirəsinə həsr olunmuş anım mərasimi təşkil olunub. Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Qaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, millət vəkilləri Pərvin Kərimzadə, Müşfiq Cəfərov, QMİ Qazılar Şurasının üzvü Hacı Tahir Abbasov, məhkəmə sədrləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, universitet rektorları, şəhərdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimai birlik nümayəndələri, şəhid ailələri, müharibə iştirakçıları və sakinlər iştirak ediblər. Əvvəlcə rəsmilər Azərbaycanın ərazi bütövlüyü uğrunda itkin düşmüş hərbçilərin adları əks olunan lövhəni ziyarət edib, gül dəstələri düzüblər. Daha sonra Niyazi Bayramov "Əbədi məşəl" abidəsi önünə əklil qoyub. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Aparıcı tərəfindən 20 Yanvar faciəsi ilə bağlı məlumat verilib, din xadimi şəhidlərin ruhuna dualar oxuyub. Saat 12:00-da Gəncə şəhərində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Nizami Gəncəvi və Heydər Əliyev, həmçinin Heydər Əliyev və Şah İsmayıl Xətai prospektlərinin kəsişməsində nəqliyyatın hərəkəti dayanıb, avtomobillər vasitəsilə səs siqnalları verilib. Əlavə olaraq onu da qeyd edək ki, Gəncədəki Şah Abbas Cümə Məscidində, Aleksandr Nevski Rus Pravoslav Kilsəsində və Yəhudi Dini İcmasında 20 Yanvar şəhidlərinin ruhuna dualar oxunub.

Şəki

Şəhər rəhbərliyi, şəhid ailələri və ictimaiyyətin nümayəndələri şəhərdə yerləşən Şəhidlər Xiyabanını ziyarət etmiş, Vətənimizin müstəqilliyi və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda şəhid olmuş igid Vətən oğullarının məzarları üzərinə qırmızı qərənfillər düzmüş, şəhidlərin xatirəsini ehtiramla yad etmişlər.

Qeyd edək ki, 20 Yanvar faciəsinin otuz beşinci ildönümü ilə bağlı Şəki şəhərində yerləşən Şəhidlər Xiyabanında, kənd və qəsəbələrdə yerləşən şəhidlərin məzarlıqlarında abadlıq-təmizlik işləri aparılmış, idarə və təşkilatlarda müvafiq tədbirlər təşkil edilmiş, hüzn əlaməti olaraq yanvarın 20-də rayon ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağı endirilmişdir.

Lənkəran

Xalqımızın milli azadlıq hərəkatının zirvəsi sayılan 1990-cı ilin Yanvar hadisələrindən 35 il keçir. Qanlı şənbə gecəsində ölkəmizin azadlığı, müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş igidlərin xatirəsi Lənkəranda böyük ehtiramla yad edilib. Rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrində Qanlı Yanvara həsr edilmiş silsilə tədbirlər keçirilib, kitab və rəsm əsərlərindən ibarət sərgilər təşkil olunub, tamaşalar nümayiş etdirilib.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov 20 Yanvar şəhidlərinin ailə üzvləri ilə görüşüb. İcra başçısı 20 Yanvar şəhidlərinin ailələrinin və əlilərinin qayğıları ilə maraqlanıb, onlara maddi yardımlar göstərilib.

Şəhid ailələrinin üzvləri hər zaman dövlət qayğısı ilə əhatə olunduqlarını məmnunluqla qeyd edərək davamlı şəkildə göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə, Birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Görüşdən sonra Lənkəran şəhərində Milli Qəhrəmanların abidələri ziyarət olunub.

N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş olunub.

Astara

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Astara şəhərində anım mərasimi keçirilib. Tədbir iştirakçılarına faciə haqqında ətraflı məlumat verilib. Bildirilib ki, 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə 26 min nəfərlik sovet ordusunun qoşun birləşmələri heç bir xəbərdarlıq edilmədən ölkəmizin paytaxtı Bakı şəhərində əliyalın, dinc əhalini, azadlıq mücahidlərini xüsusi amansızlıqla qətlə yetirib. Şəhidlərin arasında Astaradan Çingiz Mirzəhüseyn oğlu Əliyev və Novruz Faiq oğlu Əsgərov da olub. Hər ikisi Bakı şəhərindəki Şəhidlər Xiyabanında uyuyur.

Yanvar qırğınında həlak olan Vətən övladları ölkəmizin tarixinə parlaq səhifə yazdılar. Şəhidlər Xiyabanı, şəhid məzarları xalqımızın müqəddəs and yeridir.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Milli Məclisin deputatı Rəşad Mahmudov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları, rayon ictimaiyyətinin nümayəndələri Astara şəhərinin mərkəzində salınmış Şəhidlərin Xatirə Kompleksinin önünə qərənfil dəstələri düzərək ölkəmizin azadlığı, müstəqilliyi, suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalmış qəhrəmanların xatirəsinə dərin hörmət və ehtiramlarını ifadə ediblər.

Lerik

Lerik şəhərində, rayonun kəndlərində Yanvar faciəsinin 35-ci ildönümünə həsr edilmiş anım tədbirləri təşkil olunub. Şəhidlərin xatirəsi hörmətlə anılıb, ruhlarına dualar səslənib.

Ümumxalq Hüzn Günü Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin nümayəndələri, ağsaqqallar, ziyalılar, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi veteranları, gənclər "Şəhidlər" abidə-kompleksinin önünə tər qərənfillər düzüb, şəhidlərin ruhlarını ehtiramla yad ediblər.

Gün ərzində rayon sakinləri "Şəhidlər" abidə-kompleksini ziyarət edərək şəhidlərin əziz xatirəsinə sonsuz ehtiramlarını bildiriblər. Saat 12-də rayonun ərazisində faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yardımlı

20 Yanvar qanlı faciə olmaqla yanaşı, həm də xalqımızın azadlıq səsini ucaltdığı, suverenliyi uğrunda fədakarlıq, qəhrəmanlıq nümayiş etdirdiyi şərəfli tarixdir. Qanlı şənbə gecəsində şəhidlik zirvəsinə ucalmış igidlərin parlaq xatirəsi respublikamızın hər yerində olduğu kimi, Yardımlı rayonunda da dərin ehtiramla anılıb.

Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov anım mərasimində çıxış edərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun xalqımıza qarşı qətliam, bəşəri cinayət törətdiyini, 20 Yanvarın ölkəmizin müstəqillik tarixinə şərəf və qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu bildirib.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, xalqımızın iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gecə şəhidlik zirvəsinə ucalan Vətən övladları xalqımızın azadlığı, Vətənimizin müstəqilliyi, milli dövlətçiliyi üçün yol açdılar. Anım mərasimində rayon icra hakimiyyətinin rəsmiləri, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yardımlı rayon şöbəsinin rəhbərləri, Yeni Azərbaycan Partiyası Yardımlı rayon təşkilatının fəalları, şəhid ailələrinin üzvləri, qazilər, ictimaiyyətin nümayəndələri şəhidlərin abidə-kompleksini ziyarət edib önünə tər qərənfillər düzüblər. Yanvar şəhidlərinin xatirəsi ehtiramla yad olunub, ruhlarına dualar səslənib.

Şamaxı

Şəhidlər Xiyabanında 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar keçirilən anım mərasimində öncə ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü, xalqımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının ruhlarına dualar oxunub, rayon rəhbərliyi tərəfindən şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə əklil qoyulub, məzarlar üzərinə tər çiçəklər düzülüb. Qanlı Yanvar faciəsində şəhid olmuş rayon sakinləri Məmmədov Vidadi Üzeyir oğlu və İsrayılov Ağanəzər Araz oğlunun Şamaxı şəhərinin Yeddi Günbəz və Laləzar qəbiristanlıqlarındakı məzarları ziyarət edilib və ailələrinə başsağlığı verilib.

Anım gününə həsr olunmuş dəyirmi masada çıxış edən rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının rayon şöbəsinin sədri Ağarza Bayramov, şəhid anası Güllü Babaşova, Qafqaz Müsəlmanları İdarəsinin Şamaxı bölgəsi üzrə qazısı Hacı Mərəhməd Mustafayev, ADPU-nun Şamaxı filialının direktoru Tünzalə Yusifova, rayon Ağsaqqallar Şurasının sədri Mail Alıcanov və YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizənin simvoluna çevrilmiş 20 Yanvar faciəsinin bəşəriyyət tarixində ən faciəli günlərdən biri olduğunu vurğulayaraq Azərbaycan xalqına, dinc, silahsız insanlara qarşı həyata keçirilən hərbi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu bildiriblər.

İsmayıllı

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar rayonunun Şəhidlər Xiyabanı gün ərzində ziyarət olunub.

Ziyarətdə rayonun icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbər və əməkdaşları, idarə, müəssisə və təşkilatların kollektivləri, habelə ictimaiyyət nümayəndələri iştirak ediblər. Vətənin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən, qətlə yetirilən günahsız oğul və qızlarımızın əziz xatirəsi böyük ehtiramla yad olunub.

Tədbirin bədii hissəsi 20 Yanvar şəhidlərinin, eləcə də Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbir ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

Naftalan

1990-cı ilin 20 Yanvar təqvimi tariximizdə xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi mübarizənin şərəfli tarixidir. 20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycanın müstəqillik tarixinin parlaq səhifələrindən biri kimi daim xatırlanacaq və gələcək nəsillərə örnək olacaqdır. Respublikamızın bütün bölgələrində olduğu kimi, Naftalan şəhərində də 20 Yanvar faciəsinin otuz beşinci ildönümü ilə əlaqədar olaraq anım tədbiri keçirilib. Anım tədbirində şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Naftalan şəhər təşkilatının sədri, şəhid ailələri, müharibə iştirakçıları, idarə, müəssisə və təşkilat rəhbərləri, ziyalılar, şəhər ictimaiyyəti iştirak ediblər. Faciə qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq "Vətən Uğrunda Həlak Olanların Memorial Kompleksi" ziyarət olunub. Naftalan şəhərinin inzibati ərazisində də şəhidlərimizin əziz xatirəsinə ehtiram əlaməti olaraq dövlət bayraqları endirilib, saat 12:00-da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillər vasitəsilə səs siqnalları verilib.

Ağsu

Rayonda Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsinin şanlı tarixi olan 20 Yanvar - Ümumxalq Hüzn Gününün 35-ci ildönümü ilə əlaqədar şəhidlərin xatirəsi anılıb. Şəhid ailələri, müharibə iştirakçıları, ağsaqqallar, ziyalılar, idarə, müəssisə və təşkilatların kollektivlərinin iştirak etdiyi mərasimdə Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov qeyd edib ki, 1990-cı il 20 Yanvar faciəsinin dağılmaqda olan sovet imperiyasının xalqımızın azadlıq uğrunda dinc mübarizəsinə qarşı yönəldilən bir qəsd olmuşdur.

Qəhrəmanlıq Kompleksinə əklil qoyulub və mərasim iştirakçıları tərəfindən kompleks ziyarət olunub. Abidə önünə gül-çiçək dəstələri düzülüb və şəhidlərin xatirəsi anılıb. Mərasim iştirakçıları daha sonra torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş ağsulların uyuduğu Şəhidlər Xiyabanına gələrək şəhid məzarlarına gül-çiçəklər düzüb, xatirələrini ehtiramla yad ediblər.

Qobustan

Tədbirdə rayon icra hakimiyyətinin başçısı, hüquq-mühafizə orqanlarının rəhbərləri, Qobustan RİH-in əməkdaşları, idarə və müəssisələrin rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

Tədbir iştirakçıları ilk öncə Qobustan rayon Şəhidlər Xiyabanını ziyarət edib, abidənin önünə gül dəstələri qoyub. Tədbir daha sonra Qobustan RİH-in akt zalında davam edib.

Tədbirdə Qobustan Rayon İcra hakimiyyətinin başçısı 20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar çıxış edib. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, daha sonra 20 Yanvar hadisələri ilə bağlı film nümayiş etdirilib.

Ağdaş

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Ağdaş rayonunda silsilə tədbirlər keçirilib. Rayonun idarə, müəssisə və təşkilatlarında təşkil olunan tədbirlərdə faciə qurbanlarının xatirəsi anılıb, təhsil müəssisələrində xüsusi dərslər keçirilib. Yanvarın 20-də rayondakı "Şəhidlər" kompleksində anım tədbiri keçirilib. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalmış qəhrəman Vətən övladlarının xatirəsi anılıb. Şəhidlərimizin ruhlarına dualar oxunub, şəhid məzarlarının üzərinə tər gül-çiçək dəstələri düzülüb. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Orxan Hüseynzadə, hüquq-mühafizə orqanlarının, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirlər çərçivəsində 20 Yanvar şəhidi Müşviq İsayevin anım mərasimi təşkil olunub, şəhidin ailəsi ziyarət olunub. Bəli, 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil, xalqımızın qəhrəmanlıq salnaməsidir... Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi...

İmişli

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı İmişli rayonunun Şəhidlər Xiyabanında keçirilən anım tədbirində İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, millət vəkili Səyyad Salahlı, YAP İmişli Rayon Təşkilatının sədri Səfa Ağayev, şəhid ailələri, rayonun hüquq-mühafizə və idarə, müəssisələrinin rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Rayon ictimaiyyəti əvvəlcə Xiyabanda şəhid məzarlarının, şəhidlər kompleksinin və həmçinin "Qələbə" abidəsinin önünə gül-çiçək dəstələri düzülüb, ruhlarına dualar oxuyub, əziz xatirələrini ehtiramla yad etdilər. Sonra tədbir iştirakçıları tərəfindən ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Çıxış edənlər Qanlı Yanvar hadisələrinin dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olduğunu vurğuladılar. Anım tədbirinin rəsmi hissəsi başa çatdıqdan sonra icra başçısı rayonun Göbəktala kəndində yerləşən qəbiristanlıqda 20 Yanvar şəhidi Sürayyə Lətif qızı Babayevanın məzarı ziyarət edib, önünə gül-çiçək dəstələri düzülüb, ruhuna dualar oxundu.

Goranboy

Goranboyda 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı, Şəhidlər Xatirə Kompleksi, Goranboy rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonunun digər rəhbər şəxsləri, bir qrup şəhid ailələri, qazilər və ictimai fəallar tərəfindən ziyarət edilib. Şəhidlərin əziz xatirəsi böyük ehtiramla anılıb, ruhlarına dualar oxunub, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Bildirilib ki, 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil, xalqımızın qəhrəmanlıq snalnaməsidir. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi. Uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. 20 Yanvardan başlayan milli həmrəyliyimiz, birliyimiz ötən illərdə daha da möhkəmləndi, bütövləşdi və Azərbaycan xalqının dəmir yumruq kimi birləşməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz tərəfindən Qarabağın işğaldan azad edilməsinə səbəb oldu.

Beyləqan

Respublikamızın hər yerində olduğu kimi, Beyləqanda da 20 Yanvar faciəsinin 35-ci ildönümü qeyd edildi. Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, icra aparatının məsul işçiləri, YAP Beyləqan Rayon Təşkilatının sədri, hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonun bütün idarə, müəssisə və təşkilatının əməkdaşları, hərbçilər, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri Beyləqan rayonunda Şəhidlər abidəsini ziyarət edərək, önünə tər qərənfillər düzərək, faciə qurbanlarının əziz xatirəsini ehtiramla yad ediblər. Anım mərasimində 20 Yanvar faciəsinin azadlıq, müstəqillik uğrunda mübarizəyə qalxan xalqımızın öz qəhrəmanlığını, məğrurluğunu nümayiş etdirdiyi, müdhiş şənbə gecəsində həlak olanların öz şəhidliyi ilə müasir tariximizə parlaq səhifə yazdıqları qeyd olunub.

Zaqatala

Torpaq bizim and yerimiz, Vətən güvəncimiz, taleyimiz, həm də tariximizdir. Dünyaya gələndə beşiyimiz, dünyadan gedəndə məzarımızdır torpaq. Dünən də belə olub, bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan xalqı müstəqillik yollarında mübarizədə həmişə böyük çətinliklərlə üzləşib. Çox itkilər verilmiş, lakin xalq müstəqil olmaq fikrindən bir an belə əl çəkməmişdir. Məhz bunun ən böyük faktı 20 Yanvar faciəsidir.

Qan yaddaşımıza faciə kimi yazılmış 20 Yanvar, eyni zamanda xalqımızın tarixində qəhrəmanlıq səhifəsidir. 35 il öncə həmin gecədə şəhid oğullar şanlı tarix yazdılar. Zaqatala rayonunda səhər saatlarında tam yenidən qurulmuş "Şəhidlər Xatirə Kompleksi"ndən başlayan anım mərasimləri rayonun qəsəbə və kəndlərində günün sonunadək davam etmişdir. Heydər Əliyev Mərkəzində konfrans keçirilmiş, saat 12-də isə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Şəhid ailələri rayon rəhbərliyi tərəfindən evlərində ziyarət edilmişdir. Rayon ictimaiyyəti 20 Yanvar qurbanlarının timsalında Vətən uğrunda canlarından keçən bütün şəhidlərin xatirəsini ehtiramla yad etmişdir.

Şirvan

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şəhərin hüquq-mühafizə orqanlarının, regional təşkilatların, idarə və müəssisələrin rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri öncə şəhərin mərkəzi meydanında ucalan ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək, əziz xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Sonra Şəhidlər Xiyabanında 20 Yanvar şəhidlərinin xatirə lövhəsi, Birinci Qarabağ müharibəsində itkin düşənlərin xatirəsinə ucaldılan abidə, "Əbədi məşəl" abidəsi, Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin məzarları ziyarət edilib, önünə tər güllər düzülərək, ruhlarına dualar oxunub. Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhidlərin ailə üzvləri, yaxınları ilə görüşüb, onlara Allahdan səbir diləyib.

Sonra şəhər İcra Hakimiyyətinin başçısı və hüquq-mühafizə orqanlarının rəhbərləri el qəbiristanlığında şəhidlərin yenilənmiş məzarüstü abidələrini, Birinci Qarabağ müharibəsində şəhid olan Milli Qəhrəmanlar Nofəl Quliyevin, Tahir Bağırovun, Rəfael Həbibovun büstlərini ziyarət edərək, xatirələrini ehtiramla yad ediblər.

Salyan

Salyan Rayon Şəhidlər Xiyabanında keçirilən ümumrayon tədbirində RİH başçısı Rüstəm Xəlilov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, idarə, müəsissə və təşkilat kollektivləri, hərbi hissənin əskərləri, zabit heyəti və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Çıxış edənlər bildiriblər ki, Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olan 20 Yanvar faciəsindən 35 il keçməsinə baxmayaraq, xalq hər il bu faciə qurbanlarının xatirəsini yad etməyi özünün müqəddəs borcu hesab edir. Qeyd olunub ki, xalqımız bu tarixi təkcə hüzn günü kimi deyil, eyni zamanda milli qürur və iftixar günü kimi anır. Tədbir iştirakçıları "20 Yanvar şəhidləri abidə-kompleksi"ni, 20 Yanvar şəhidi Elçin İmanovun məzarını, Şəhidlər Xiyabanını və "Şəhidlər" xatirə kompleksini ziyarət edib, önünə gül-çiçək dəstələri düzərək ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini ehtramla yad ediblər. Anım mərasimindən sonra rayon icra hakimiyyətinin başçısı Rüstəm Xəlilov 20 Yanvar şəhidi Elçin İmanovun ailəsini ziyarət edib.

Masallı

Çağdaş tariximizin qanlı və şərəfli səhifəsi olan 20 Yanvar faciəsi ilə əlaqədar rayonda anım mərasimləri, müxtəlif səpkili tədbirlər keçirilib. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizənin simvoluna çevrilmiş 20 Yanvar faciəsinin qurbanlarının xatirəsi böyük ehtiramla yad olunub.

Ümumxalq Hüzn Günü səhər saatlarından başlayaraq Masallı şəhərinin Qəhrəmanlar parkında ucaldılmış Şəhidlər abidə-kompleksinə gələnlərin ardı-arası kəsilmirdi. Abidənin önündə faciənin 35-ci ildönümü ilə əlaqədar ümumrayon mərasimi keçirilib.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, ağsaqqallar, ziyalılar, gənclər, məktəblilər, rayon sakinləri abidənin önünə tər qərənfillər düzərək şəhidlərin xatirəsinə ehtiramlarını ifadə edib, ruhlarına dualar səslənib.

Həmin gün rayonun ərazisində matəm əlaməti olaraq Dövlət Bayrağı endirilib, saat 12-də Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyat vasitələrində səs siqnalları verilib.

"Respublika".